**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

**ATİB İdarə Heyəti sədrinin müavini beynəlxalq konfransda çıxış etdi**

**No: 09/15/94**
**31.03.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) İdarə Heyəti sədrinin müavini Cemal Yangın Türkiyə Xarici İqtisadi Əlaqələr Şurasının (DEİK) təşkilatçılığı ilə həyata keçirilən "Avrasiya Bölgəsinin Türkiyə İqtisadiyyatı üçün Əhəmiyyəti" adlı beynəlxalq konfransda çıxış etmişdir.

Konfransın keçirilməsində məqsəd dünyada yaşanan qlobal böhran zamanı Avrasiya regionundakı siyasi və iqtisadi dəyişikliklərin fonunda regionun Türkiyə iqtisadiyyatı üçün əhəmiyyətinin gündəmə gətirilərək müzakirəsi olmuşdur. Avrasiya regionunun kəsişmə nöqtəsi olan İstanbulda təşkil edilən konfransda bir çox ölkələrin dövlət rəsmiləri və iş adamları iştirak etmişdir.

Konfransda çıxış edən Cemal Yangın bildirib ki, Türkiyənin son zamanlarda xarici siyasət və beynəlxalq arenada qazandığı mövqenin fərqinə varmaq və bu imkandan istifadə etmək lazımdır. C.Yangın bu vəziyyətə yol açan iki mühüm səbəbi də qeyd etmişdir: "Birincisi, dünyanın Buşdan sonra Obama ilə başlayan yeni bir mərhələyə keçməsi. İkincisi, Türkiyənin geopolitik vəziyyətinə görə malik olduğu üstünlüklərin xüsusi ilə bu mərhələdə Amerika üçün çox əhəmiyyət daşıması".

Cemal Yangın çıxışında qeyd edib ki, Obamanın hakimiyyətə gəlməsi ilə başlayan dövr ABŞ-ın bu regionda enerji məsələləri ilə bağlı yeni zəminlərin hazırlanmasını da potensial olaraq əhatə edir: "ABŞ dünyanın hansı bölgəsi ilə iqtisadi cəhətdən maraqlanmışsa, oraya ilkin demokratiya ilə bağlı tənqidlər yönəltmişdir. Bu vəziyyət Türkiyə üçün də eynidir. Orta Şərq ölkələrinin demokratiyaya keçməsini istəmək yaxın zaman üçün artıq xəyal olmayacaqdır. Türkiyə həm bir Müsəlman ölkəsi, həm də demokratik ölkə özəlliyi ilə gündəmdədir".

Onun fikrincə, Türkiyənin xarici siyasəti ilə bağlı baş verən hadisələrin Türkiyənin daxili siyasətinə də təsir edəcəyi istisnasızdır: "İndi ən önəmli məsələ,

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**

Türkiyənin xarici siyasətini, ətrafdakı dəyişikliyi daha dərin bir mədəniyyət perspektivi ilə qavramaqdır”.

Cemal Yangın daha sonra vurğulayıb ki, regionlar arasındakı ticarət əlaqələri təhlil edildikdə dünya mal ticarətinin ümumi mənzərəsində coğrafi yaxınlığın xarici ticarətdə çox əhəmiyyətli rol oynadığı aydın görünür: “2008-ci il məlumatlarına görə, Türkiyənin 1 nömrəli ixracat partnyoru Almaniya, 1 nömrəli idxalat partnyoru isə Rusiyadır. Ən sürətli idxalat artımı isə Azərbaycandan olmuşdur”.

O çıxışının sonunda qeyd edib ki, Cənubi Qafqaz Türkiyə üçün ən az Qara dəniz və Orta Şərq qədər əhəmiyyətli regiondur: “Bu regionda əsas tarixi bağımız təbii ki, Azərbaycandır. Bu səbəbdən Azərbaycan Türkiyə İş Adamları Birliyi olaraq, tarixi missiyamızı dərk edir və bu iki ölkə arasındakı iqtisadi, sosial və mədəni əlaqələrin güclənməsi üçün əlimizdən gələni əsirgəmirik. Bu bağların iki ölkə sərhədlərini aşıb, üçtərəfli və dördtərəfli formata keçməsi isə regionda daimi sabitliyə, davamlı iqtisadi yüksəlişə, ortaq ticarət və innovasiya sahələrinin inkişafına və iqtisadi təhlükələrə qarşı ortaq refleksə nail olunmasına töhfə verə bilər”.

Qeyd edək ki, tədbirdə Türk-Avrasiya İş Şuraları Koordinasiya Rəhbəri Tuğrul Erkin, sabiq Dövlət Naziri Prof.Dr.Ahat Andican, Topqapı Sarayı Muzeyinin Baş Direktoru Prof.Dr.İlber Ortaylı, Rusiya Dumasının Millət Vəkili Sergey Markov, Türkiyə İqtisadi Siyasət Araşdırma Fondu (TİPAV) Direktoru Güven Sak, Urban İnşaat İdarə Heyətinin sədri Ali İhsan Akıskalıoğlu, DEİK Avrasiya İş Şurasının Fəxri Üzvü Nihat Gökyiğit, SSRİ-nin Ankaradakı sabiq Səfiri Albert Çernişev, Türk Azərbaycan İş Şurasının Sədri Cengiz Gül, Rus-Türk Araşdırmalar Mərkəzi (RUTAM) Sədri Hakan Aksay iştirak etmişlər.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**